UNEC

**Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)**

Təsdiq edirəm:
"Biznesi və loqistika" kafedrasının
müdiri: dos. Əliyev M.Ə.
_______________2025- 2026-cı il

**"SOSİAL SAHİBKARLIQ" fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00823** |
| **Fənnin növü:** | **(seçmə)** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **payız** |
| **Fakültə:** | **"Biznes və menecment"** |
| **Qrup:** | **500-5/500-6** |
| | **500-7/ 500-8** |
| **Tədris yükü:** | **60 saat** |
| **Kredit sayı:** | **6** |
| **Kafedra:** | **"Biznes və logistika"** |

## II. Müəllim haqqında məlumat


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Şükürova Aygün (i.e.n., dosent)** |
| **E-mail ünvanı:** | ashukurova67@gmail.com |
| **whatsapp:** | **055-569-90-11** |


| | |
|---|---|
| **Tələbələrə məsləhət saatları** | **1; 3 günlər saat 12-00 dad 13-00 dək** |

Bu syllabus Ankara Hacettepe Universitetində tədris olunam fənnlərin məzmununa uyğun olaraq "**Biznes və Loqistika**" kafedrasının dosenti Aygün Şükürova tərəfindən hazırlanmışdır.

## III.Fənnin təsviri

Sosial Sahibkarlıq fənni sosial problemlərin innovativ və davamlı yollarla həllinə yönəlmiş sahibkarlıq fəaliyyətlərini öyrədir. Tələbələrə həm sosial, həm də iqtisadi təsir yaradan layihələrin qurulması üçün bilik və bacarıqlar qazandırır. Fənn çərçivəsində sosial sahibkarlığın anlayışı, tarixi inkişafı, əsas xüsusiyyətləri və fərqli modelləri təhlil edilir. Sosial sahibkarlıq ekosistemi – dövlət, QHT, investor və icmaların qarşılıqlı əlaqəsi araşdırılır, sosial innovasiya və sosial təsirin ölçülməsi əsas mövzular kimi diqqət mərkəzindədir. Həmçinin, tələbələr yerli və beynəlxalq uğurlu sosial sahibkarlıq nümunələri ilə tanış olur, sosial xidmət prinsipləri və sahibkarlıq əlaqəsini öyrənirlər. Real problemlər əsasında layihə hazırlayaraq praktik biliklər əldə edən tələbələr sosial məsuliyyətli liderlər və təşəbbüskarlar kimi yetişdirilirlər.

## IV.Fənnin məqsədi

Bu fənnin məqsədi tələbələrə sosial sahibkarlıq anlayışını, onun cəmiyyətin inkişafındakı rolunu, sosial problemlərin innovativ yollarla həllində sahibkarlığın imkanlarını və sosial xidmət sahəsində tətbiqini izah etməkdir. Fənn, tələbələrə həm nəzəri biliklər, həm də praktiki bacarıqlar qazandıraraq, sosial dəyişiklik yaratmağa yönəlmiş sahibkarlıq təşəbbüslərinin inkişaf etdirilməsi üçün əsas platforma təqdim edir.

## V.Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbə:

**Bilməlidir:**

- Sahibkarlıq və sosial sahibkarlığın oxşar və fəqli cəhətlər firmaların üfüqi və şaquli birləşmələrinin xüsusiyyətlərini;
- Sahibkarlığın ekosistem modellərini;
-Sosial siyasətin əsas komponentlərinin sosial sahibkarlıqla əlaqələndirilməsini
- Sosial sahibkarlıqla bağlı sərhədləri və təsnifatları;
- Sosial sahibkarlıq və sosial iş bacarıqlarını;
- Sosial xidmət müəssisələrində təşəbbüskarlıq nümunələrini tətbiq etməyi;
- Azərbaycanda sosial sahibkarlığın tarixi və mövcud vəziyyəti;
- Azərbaycanda sosial biznes mühitinin vəziyyəti və kredit resirslarına əlçatanlıq səviyyəsi.

**Bacarmalıdır:**

-Sosial sahibkarlıqla bağlı bilik bazası ilə praktiki imkanları əlaqələndirməyi;

- Sosial sahibkarlıq fəaliyyətinin sosial dəyər yaratma potensialı;

- İstənilən biznes sahəsi ilə bağlı Kanvas modelini hazırlamaq;

-Sosial problemlərin şiddətini ölçə bilmək və önləyici (preventiv) tədbirləri hazırlamaq bacarığı;

- Azərbaycanda sosial sahibkarlığın inkişafı üçün mikromaliyyəşmənin önəmi analiz etmək.

## VI. Kursun proqramı

Proqram 30 saat mühazirə, 30 saat seminar olmaqla 60 saatlıq tədris moduluna əsaslanır. Proqram mühazirələr, müzakirələr, tapşırıqlar və məşqlər, qrup işi, praktik məşğələlər və iş müzakirəsini əhataedir. Proqramın müddəti 15 həftədir

## VII.Prerekvizitlər

Yoxdur.

## VIII.Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys- stadilər) öyrənilməsi və təhlili, və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqlarıhəll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## IX.Fənnin mühazirə mətnləri ilə tanışlıq

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlifnöv məşğələ materialları elektron formatda Universitetin saytında universitetin veb saytındakı tələbə kabinetində yerləşdirilir.

## X.Əsas dərslik və dərs vəsaitləri


- Denizalp, D. (2009). Sosial Transformasiya üçün Sosial Sahibkarlıq, https://www.stgm.org.tr/yayinlar/toplumsal-donusum-icin-social-girisimcilik-rehberi

-Ngoh-Tiong Tan (2004) Sosial Sahibkarlıq: Dəyişən Dünyada Sosial İş Üçün Çağırış, Asiya Pasifik Sosial İş və İnkişaf Jurnalı, 14: 2, 87-98, DOI: 10.1080 / 21650993.2004.9755956

- Andrew J. Germak & Karun K. Singh (2009) Sosial Sahibkarlıq: Sosial İşçilərin İşini dəyişdirmə, Sosial İşdə İdarəetmə, 34: 1, 79-95, DOI: 10.1080 / 03643100903432974

- Fernando Rukshan (2015). Sosial İş və Sosial Sahibkarlıq: Sinerji və Sosial Dəyişiklik üçün Fürsətlər, Bakalavr Sosial İşlər Jurnalı 20 (1): 189-198; DOI: 10.18084 / 1084-7219.20.1.189

- Monica Nandan, Manuel London & Tricia Bent-Goodley (2015) Sosial İşçilər Sosial Dəyişiklik Agentləri: Sosial İnnovasiya, Sosial

İntreyperlik və Sosial Sahibkarlıq, İnsanlara Xidmət Təşkilatları: İdarəetmə, Liderlik və İdarəetmə, 39: 1, 38-56, DOI: 10.1080 / 23303131.2014.955236

-İntreyperlik və Sosial Sahibkarlıq, İnsanlara Xidmət Təşkilatları: İdarəetmə, Liderlik və İdarəetmə, 39: 1, 38-56, DOI: 10.1080 / 23303131.2014.955236.

- Kabbaj M. və Khalid El Ouazzani Ech Hadi Emo. (2016). Sosial Sahibkarlıq Ekosisteminin Araşdırılması: Mərakeş Məsələsi, İnkişaf Sahibkarlığı Jurnalı. 21, 4, DOI: 10.1142 / S1084946716500217.

**XI. Fənnin laboratoriya mövzuları və tədris-tematik bölgüsü**

| Sıra | Mövzuların adları | Mühazirə dərsləri | Seminar dərsləri |
|---|---|---|---|
| 1 | Sosial sahibkarlığın tanışlığı,tərifi və əhatə dairəsi | 2 | 2 |
| 2 | Sosial sahibkarlığın fərqli xüsusiyyətləri | 2 | 2 |
| 3 | Sosial sahibkarlıq ekosistemi | 2 | 2 |
| 4 | Sosial problemlər və sosial sahibkarlıq | 2 | 2 |
| 5 | Sahibkarlıq sosial dəyişiklik aləti kimi | 2 | 2 |
| 6 | Sosial problemlərin müəyyənləşdirilməkdə sahibkarlığın güclü və zəif tərəfləri | 2 | 2 |
| 7 | Sosial xidmət informasiya bazası, dəyişdirmə prosesi haqqında məlumat | 2 | 2 |
| 8 | Biznes Kanvas Modelinin hazırlanması | 2 | 2 |
| 9 | Biznes Kanvas Modelinin istifadəsi | 2 | 2 |
| 10 | Mikromaliyyə: mikrokreditlərin sosial sahibkarlıqda rol | 2 | 2 |
| 11 | Mikromaliyyə: dayanıqlı inkişaf məqsədlərinin iqtisadi rolu | 2 | 2 |
| 12 | Sosial innovasiya | 2 | 2 |
| 13 | Sosial iş (xidmət) təcrübəsindən birbaşa istifadə | 2 | 2 |
| 14 | Təhsildə islahatlar, sosial dəyişikliklərdə təhsilin rolu | 2 | 2 |
| 15 | Azərbaycanda sosial sahibkarlıq | 2 | 2 |
| | **CƏMİ** | **30** | **30** |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habeləarqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlarayiyələnməlidir.

**XIII.Prerekvizitlər**

Yoxdur.

**XIV. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XV. Dərsə davamiyyət**

Tələbərin dərslərin ən azı 75 faizində iştirak etməlidirlər. Bundan az dərslərdə olan tələbələrimtahana buraxılmırlar.

**XVI. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi**

İmtahan yazlı üsulu ilə keçiriləcəkdir. Tələbəyə ümumilikdə 75 yazılı təqdim olunacaq.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimummiqdarı -100 baldır:

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Dərslərdə cari fəallığa görə | 20 | 20 % |
| Aralıq imtahan | 30 | 30% |
| Final imtahanı | 50 | 50 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahanaqədər və imtahanda) tələbənin topladığıbalın yekun miqdarınagörə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**

51-60 bal- “qənaətbəxş” – **E**

61-70 bal- “kafi” – **D**

71-80 bal- “yaxşı” – **C**

81-90 bal- “çoxyaxşı” – **B**

91-100 bal- “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Fənn müəllimi:**  **dos., i.e.n.Şükürova.A.S**